*1979-cu ildən keçmiş Naxçıvan rayonu Babək adı ilə əvəz olunmuşdur. Rayonun ümumi sahəsi 1265 kvadrat kilometrdir. Ərazinin relyefi cənuba tərəf meyilli olmuş, yüksək yerləri Sarı dağ (1725 m), Qaş dağ (1395 m), Duz dağ (1153 m) və ən alçaq sahələri isə Araz çayı sahillərindəki yaşıllıqlardır ki, hündürlüyü dünya okeanı səviyyəsindən 600 m yüksəklikdədir.*

*Rayon ərazisindən axıb gedən Araz çayı üzərində 1965-ci ildən bənd çəkilmiş və gücü 40 meqavatt-saat olan SES qurulmuşdur.*

# BABƏK RAYONUNDAKI ZİYARƏTGAHLAR

Bəndin tikintisindən sonra çay üzərində "dəryaça" əmələ gəlmişdir ki, nəticədə orta əsrlərdə şöhrət tapmış Astaabad şəhərinin xərabəlikləri ilə birlikdə Qızılvəng (Təzə kənd), Yəmxana, Bulqan və Qaraçuq kəndləri su altında qalmışdır.

Ərazidəki Naxçıvan çayının suları axaraq Araz dəryaçasına tökülməklə, öz hidroyardımını göstərməkdədir.

Rayonun mərkəzi Babək qəsəbəsi, Naxçıvan şəhərindən səkkiz kilometr aralıdadır. Ərazidə Azəri türkləri ilə yanaşı digər etnik qurumların da nümayəndələri yaşayırlar.

2006-cı ilin əvvəllərində Babək rayonu ərazisində 66 min 898 nəfər əhali olmuşdur.

Rayon ərazisində yeganə Nehrəm kəndinin qadınları (yaşlı nəsl) İslam dinindəki hicaba əməl edərək çadra ilə özlərini örtürlər.

***

Babək rayonundakı ərazilər, qədim insanların yaşayış məskənləri olmuşdur. Belə ki, Ocaqtəpə, Quyuludağ, Vayxır nekropolları, Kültəpə kəndindəki qədim yaşayış yerləri və s. eramızdan əvvəl V-I minilliyin yadigarlarıdır.

Bundan başqa Gərməçataq kəndindəki Ağdaban şəhər xərabəlikləri eramızdan əvvəl Birinci minilliyə aiddir.

Duzdağ mədənindəki mağaralar, eramızdan əvvəl II-I minillik əsrlərin yadigarıdır.

Təəssüf ki, qədim ticarət mərkəzi olmuş, mineral soyuq sulu bulaqları ilə tanınmış Astaabad şəhəri, orta əsrlərin IX-XII yüzilliklərində inkişaf etmiş və kifayət qədər öyrənilmədən Araz çayı sularında qərq olunmuşdur.

Babək rayonu ərazisində eramızdan əvvəl V-I minilliklərə aid kurqan və nekropollar çoxdur. Bundan başqa ərazidə müalicə əhəmiyyətli mineral su bulaqları (Vayxır, Sirab) şöhrət tapmışdır.

Sirab suyu qastritlər, mədə-bağırsaq yaraları, xroniki kolit və xolesitit, yuxarı tənəffüs yollarının xroniki iltihabı, podaqra, piylənmə, şəkər diabeti və digər xəstəliklərə şəfa verir.

***

Babək rayonunda mənəviyyat öz tarixi köklərini saxlayaraq, ölkəmiz müstəqilliyə çıxdıqdan sonra köhnə məscidlər təmir olunmuş, ziyarətgahlar bərpa edilmiş və Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyində qeydə alınmaqla tarixi sərvətlərimiz kimi qorunurlar.

Rayon ərazisindəki kəndlərdə bir çox ziyarətgahlar mövcuddur ki, onlar Nehrəmdəki "Səyyid Əqil Sərdabəsi", Sirabdakı "Səyyid Hüseynlə Həsən pirləri", "Ağac piri", "Səyyid Tağı piri", "Xərabə məscid piri", Tumbuldakı "Qara ağac (Əhməd) piri", Qaraqaladakı "Şeyx İmran (Şahmərdan) piri", Alagöz Məzrədəki "Ocaqtəpə pirləri", Didivardakı "Səyyid Əhməd piri" və Payız kəndindəki "Çoban (Səyyid) Əli piri"ni göstərmək olar.

***

Ocaqtəpə pirləri

Babək rayonundakı Alagöz Məzrə kəndində qədim insanların yaşayış məskənləri olmaqla özünəməxsus tarixi mənəvi-mədəniyyət abidələri dövrümüzədək qorunub saxlanılmışlar.

Onlardan biri eramızdan əvvəl II-I minilliklərdə inkişaf etmiş Quyulu yaşayış yeri ilə, Yafəs şəhəri xərabəliklərindəki Ocaqtəpə pirləridir.

Mütəxəssislərin fikrincə Ocaqtəpə pirləri ərazisində qədim Yafəs (şəhəri) köyü salınmışdır. Haqqında danışılan Ocaqtəpə pirləri, həmin adı çəkilən qədim insanların yaşadığı xərabəlik ərazisindədir.

Alagöz Məzrə kəndi, Naxçıvan şəhərindən 17 km məsafədə Naxçıvan çayının sol sahilindədir. Kəndin adının yaranması naxçıvanlı Ehsan xan Kəngərlinin qızı Mərziyyənin şərəfinə verilərək bura Alagöz Mərziyyə kimi deyilmişdir.

Otuzuncu illərdə həmin kəndin adı dəyişilərək "Məzrə" (bitki adı) kimi qeydə alınmışdır. Buna da əsas səbəb, əraziyə köçüb gəlmiş dərələyəzli kürd tayfalarının danışıq (leksik) ləhcələrindən irəli gəlmişdir.

Kənd 164 təsərrüfatdan ibarət olaraq, burada son illərdə 780 nəfərdən artıq əhali yaşayır. Hazırda bu kənddə əvvəllər köçüb gəlmiş bir çox tayfalar yaşayaraq onları adları ilə çağırırlar. Onlar Zamanlı, İtqıranlı, Zərnətünlər, Axəşli, Kəlbəoruclu, Lizbirtli, Dərələyəzli və sairədir.

Kəndin əhalisi mehribançılıq şəraitində təsərrüfatçılığı sevməklə burada əkinçilik və bostançılıq, bir qismi də heyvadarlıqla məşğuldurlar.

Əhalinin sosial-mədəni şəraiti yaxşı təmin olunmuş,

burada məktəb tibbi-mama məntəqəsi, klub və kitabxana tikilmişdir.

Kəndə geniş asfalt yol salınmış, müxtəlif kommunikasiya əlaqələri inkişaf etdirilmişdir.

Son illərdə isə əhalinin güzəranı yaxşılaşdığından yoxsulluq aradan götürülmüş və xeyriyyəçi Sahib Əli oğlunun maddi köməkliyi ilə kənddə məscid tikilmişdir.

Alagöz Məzrə kəndində qədimdən qalma qəbiristanlıq (kurqan təpəliyi) mövcuddur.

***

Alagöz Məzrə kəndində iki qəbiristanlıqdan birinin yaranma tarixi indiyədək mütəxəssislər tərəfindən öyrənilməmişdir.

Kəndin şimal tərəfindəki dəniz səviyyəsindən 1000 metr yüksəklikdə böyük ərazidə (qədim yaşayış yerlərinin xərabəliklərində) "Ocaqtəpə pirləri" mövcuddur. Həmin ərazidə yaşıllıq meşə zolağı olan ağaclar əkilmiş və yaxınlıqda su tutumu bir milyon kilometrədək olan "Məzrə gölü" salınmışdır.

Qonşu kəndlərin yaşlı adamları rəvayət edirlər ki, dünyanı su basan zaman Nuh peyğəmbərin gəmisində gələnlərdən iki şəxs (peyğəmbərin oğlu Yafəslə gəlini), həmin ərazidə məskunlaşaraq yaşamışlar.

Zaman dəyişmiş, ərazidəki insanlar həmin yerə Nuh peyğəmbərin dünyadan köçmüş oğlu Yafəsin adını vermişlər.

Hələ ilk əvvəllər məskunlaşan insanlar ulu Yaradanı tanıyaraq Yafəsin dedikləri kimi, Allaha itaət etmiş və var-dövlət sahibi olmuşlar. Sonrakı nəsillər Yafəsin vəsiyyətlərini unudaraq təkallahlığı bir kənara atmaqla insanlara yaraşmayan işlərlə məşğul olmuşlar. Bundan sonra yafəslilər ağır həyata düçar olaraq zəlzələdən qurtula bilməmişlər. (Bu barədə müqəddəs Quranın Furqan surəsində 38,39,40 ayəsində xəbər verilmişdir).

Həmin ərazinin əhalisindən yalnız iki nəfər çobanla naxırçı salamat qalmışlar.

Sarı dağın ətəyində salamat qalmış iki nəfər zəlzələnin dağıntılarını görərək, özlərinə ölüm istəmişlər. Tezliklə göy üzünü qara buludlar örtmüş, şimşək çaxmış və güclü leysan yağmuru başlamışdır.

Yağışdan islanmış çobanla naxırçının qıvrılmış bədənləri, möcüzəli surətdə qara daşlara çevrilmişlər. Həmin qara daşlar indiyədək qalaraq insan fiqurlarını xatırladırlar.

***

Zaman dəyişmiş, ətraflardan köçüb gələn insanlar ərazilərdə ev tikərək məskunlaşmış, xərabəlik şəhər yerindəki insana oxşar qara daşları isə ziyarət etməklə pir yerinə çevirmişlər.

Həmin pirlərdən (ocaqlardan) birində sadə quruluşlu "bina" tikilmiş, digərində isə dağılmış "komanın" uçuq divarları qorunaraq saxlanılmışdır.

Maraqlıdır ki, həmin pirlərə Muxtar Respublikanın hər yerindən ziyarətə gələnlər, çobanla naxırçınnı qara daşlara çevrildiyi yerlərdə (ocaqlarda) qurbanlar kəsib Yaradanın möcüzələrinə etiqad edirlər.

Ocaq təpə pirləri insanların inac yerləri olan mənəvi ziyarət yerlərindəndir.

Yaz-yay aylarında ərazinin füsunkar gözəlliyi bura gələnləri heyran edir.

Uzun müddət ərazidə ov ovlamaq yasaq olduğundan heyvanat aləmi zənginləşmişdir. Buradakı Məzrə gölündə müxtəlif su quşları özlərinə yuva qurmuşlar.

Sarı dağın ətəklərindəki kolluqlarda isə kəklik, turac, bildirçin və başqa quşlar da yuva salmışlar.

Ərazidə məməli vəhşi heyvanlardan dovşan, tülkü, porsuq, kirpi və sairə özlərinə sığınacaq tapmışlar.

Gölün sularında vağ, yaşılbaş, ördək, vəhşi qaz kimi quşlar da qamışlıqda özlərinə yuva qurmuşlar.

Bundan başqa göldə çanaqlı bağalar, qamışlıq qurbağaları, balıq və su ilanları da yaşayırlar.

Arazla Arpa çaylarından əlaqəsi olan Məzrə gölündə bir çox cins balıq növləri də artıb çoxalmışdır. Onlardan Xallı forel, Ziyad, Çəki, Şamayı, Xəşəm, Gülmə və başqalarını göstərmək olar. Həmin cins balıqlar tilovla balıq ovlayanları həvəsə salmışlar.

"Ocaqtəpə pirləri" ərazidəki insanların mədəni və mənəvi istirahətləri üçün ən maraqlı yerlərdən biridir.

Bura gələnlər rahat asfalt salınmış yollardan heç də əziyyət çəkmirlər.

Ərazidəki mövcud dini-tarixi ziyarətgahları xalqa doğru-düzgün və elmi əsaslarla çatdırmaq üçün burada turizm xidmətlərinə ciddi ehtiyac vardır.

Son illərdə Muxtar Respublika Ali Məclisinin sədri V.Talıbov cənablarının diqqət və qayğıkeşliyi nəticəsində nəinki paytaxt şəhərdə, habelə vilayətin rayon, qəsəbə və kənd mərkəzlərində də, qədim dini-tarixi abidələr (ziyarət yerləri) bərpa etdirilmişdir.

***Mənfur erməni tarixçiləri saxtakarlıqla iddia edirlər ki, guya Naxçıvan ərazilərindəki bir sıra tarixi abidələr onlara məxsus olmuşdur.***

***Azərbaycan EA-nın naxçıvanlı mütəxəssisləri bütün bunlara cavab olaraq elmi şəkildə bir daha sübut etmişlər ki, ərazidəki dini-tarixi abidələr yalnız Azərbaycan xalqına məxsus olmaqla, onların mənəvi inanc yerləridir. Belə tarixi abidələrdən biri də Babək rayonundakı Ocaqtəpə pirləridir.***

***Xalqımızın dini-tarixi sərvətlərini qoruyaraq nəsillərə çatdırmaq hər kəsin vətəndaşlıq borcu olmalıdır.***

***Feyruz BAĞIROV,***
***Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi Elmi-Metodiki Mərkəzin şöbə müdiri***